

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 25 (21.435)

9 fevral 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafının təmin edilməsi məqsədi ilə **qərara alıram:**

1. "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin və hər ilin yekununda Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 8 fevral 2016-cı il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# 2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı

### 1. Giriş

Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində, emal müəssisələrinin xammalla təchiz olunmasında və məşğulluğun təmin edilməsində xüsusi çəkisinə görə kənd təsərrüfatı daim diqqət yetirilən sahədir.

Aqrar sektorun əhəmiyyəti nəzərə alınaraq bu sahədə çalışanlara müxtəlif təyinatlı güzəştli kreditlər verilmiş, yeni texnika və avadanlıqlar alınıb gətirilmiş, ardıcıl olaraq meliorativ tədbirlər görülmüş, kənd təsərrüfatı məhsullarının satış yarmarkaları təşkil olunmuşdur. Bütün bunlar kənd təsərrüfatına, eləcə də meyvə və tərəvəzçiliyin inkişafına diqqəti artırmışdır.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" bu sahədə mövcud problemlərin həlli istiqamətində zəruri tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

### 2."2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın əsas yekunları

"2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası son illərdə bu sahədə uğurların əldə edilməsinə şərait yaratmışdır. Belə ki, ötən müddət ərzində "Araz" Elm İstehsalat Birliyinin Ordubad dayaq məntəqəsində muxtar respublikanın iqlim-torpaq şəraitinə uyğunlaşmış, yüksək məhsuldarlığa malik meyvə sortlarının genetik fondu toplanmışdır. AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun genofond bağına yeni sortlar gətirilərək əkilmişdir.

Meyvəçiliyin inkişafına maliyyə dəstəyi davam etdirilmiş, ötən dövr ərzində Sahibkarlığa Kömək Fondunun vəsaiti hesabına müvəkkil kredit təşkilatları tərəfindən bağçılığın inkişafı məqsədilə 63 layihə üzrə 1 milyon 363 min manatdan çox kredit verilmişdir.

Meyvəçilik və tərəvəzçilik sahəsində müasir becərmə və suvarma üsullarının təbliği istiqamətində kütləvi informasiya vasitələrində maarifləndirmə işləri aparılmış, buklet-informasiya vərəqələri çap etdirilmiş və çoxaldılaraq sahibkarlara paylanılmışdır.

Muxtar respublikanın torpaq, iqlim və relyef xüsusiyyətlərinə asan uyğunlaşan meyvə sortlarından ibarət tingçilik sahələri yaradılmışdır. 2012-2015-ci illər ərzində muxtar respublika üzrə 751 hektar ərazidə 660 minə yaxın ting əkilmişdir.

Əhalinin qış aylarında faraş tərəvəz məhsullarına olan tələbatının ödənilməsi üçün müasir istixana komplekslərinin qurulması və mövcud sahələrin genişləndirilməsi istiqamətində Proqramın qəbul edildiyi vaxtdan ötən dövr ərzində Sahibkarlığa Kömək Fondunun vəsaiti hesabına müvəkkil kredit təşkilatları tərəfindən 3 milyon 840 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Hazırda muxtar respublikada ümumi sahəsi 100 min kvadratmetrə yaxın olan istixana kompleksləri əhalinin tərəvəz məhsullarına olan tələbatının ödənilməsində mühüm rola malikdir.

Meyvə və tərəvəz məhsullarının saxlanması üçün soyuducu anbarların yaradılması da diqqət mərkəzində saxlanılmış, ümumilikdə muxtar respublika üzrə dövlət maliyyə dəstəyi və şəxsi vəsait hesabına hüquqi və fiziki şəxslər tərəfindən ümumi tutumu 12730 ton olan 22 soyuducu anbar istifadəyə verilmişdir.

Kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədilə həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublika əhalisinin meyvə-tərəvəz məhsullarına olan tələbatı əsasən yerli istehsal hesabına ödənilir.

### 3. Dövlət Proqramının məqsəd və vəzifələri

Dövlət Proqramının əsas məqsədi muxtar respublikanın meyvə və tərəvəzə olan tələbatının yerli istehsal hesabına ödənilməsi, kənardan gətirilən sort meyvə tinglərinin, yerli şəraitə uyğun məhsuldar sortların əkilməsi, müasir standartlara cavab verən texnologiyalar əsasında yeni meyvə və tərəvəz emalı müəssisələrinin yaradılması, mövcud torpaq sahələrindən daha səmərəli istifadə olunması, kənd əhalisinin məşğulluğunun artırılması, sahibkarlığın stimullaşdırılması məqsədi ilə bu sahəyə dövlət dəstəyinin, daxili və xarici investisiyaların cəlb edilməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsindən ibarətdir.

Qeyd olunan məqsədə nail olunması aşağıdakı vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur:

- meyvəçilik və tərəvəzçilik sahəsində ixtisaslaşmış təsərrüfatların və ölkələrin təcrübəsinin öyrənilməsi, elmi nailiyyətlərin bu sahədə tətbiq edilməsi;
- intensiv inkişaf modelindən istifadə etməklə meyvə və tərəvəz istehsalının həcminin artırılması;
- muxtar respublikada meyvə və tərəvəz emalı sənayesinin inkişaf etdirilməsi üçün müasir standartlara cavab verən texnoloji avadanlıqların tətbiq edilməsi;
- muxtar respublikada meyvə və tərəvəz məhsullarının konservləşdirilməsi ilə məşğul olan təsərrüfat subyektlərinə dövlət maliyyə dəstəyinin göstərilməsi;
- yüksək məhsuldarlığa və keyfiyyət göstəricilərinə malik meyvə tinglərinin və tərəvəz toxumlarının yetişdirilməsi;
- anbar şəbəkələrinin və saxlanma kameralarının tikintisinin dəstəklənməsi;
- unudulmuş yerli meyvə-tərəvəz sortlarının bərpası;
- yeni bazarların öyrənilməsi və istehsal olunan meyvə-tərəvəzin ixracının təmin edilməsi;
- texniki servis xidməti, xəstəlik və ziyanvericilərə qarşı mübarizə vasitələri, eləcə də üzvi və mineral gübrələrlə təchizat sahəsində tədbirlərin genişləndirilməsi;
- yabanı meyvə bitkilərinin emalı sahələrinin yaradılması;
- meyvə və tərəvəz əkilən torpaqların analiz olunması və torpaqların məhsuldarlığının artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi;
- kənd əhalisinin məşğulluğunun artırılması.

### 4. Dövlət Proqramının həyata keçirilməsinin maliyyə təminatı

Proqramın icrası ilə bağlı tədbirlərin maliyyələşdirilməsi dövlət büdcəsi və qanunvericilikdə müəyyən olunmuş digər mənbələr hesabına həyata keçirilir.

### 5. Dövlət Proqramının icrasından gözlənilən nəticələr

Dövlət Proqramının icrası sayəsində aşağıdakı nəticələrin əldə olunması gözlənilir:

- muxtar respublika əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatının ödənilməsinin yerli istehsal hesabına təmin edilməsi və tələbatdan artıq mövsümi məhsulların ixracına nail olunması;
- meyvə-tərəvəz istehsalının stimullaşdırılması və bu sahəyə investisiya qoyuluşunun artımına nail olunması;
- kartof, soğan, sarımsaq, yerkökü və pomidor istehsalında məhsuldarlığın artırılması;
- meyvə istehsalı həcminin 62 min tona çatdırılması;
- üzüm istehsalı həcminin 20 min tona çatdırılması;
- bu sahədə məşğulluğun artırılmasına və kənd əhalisinin sosial rifahının yaxşılaşdırılmasına nail olunması;
- meyvə və tərəvəzçilik sahəsində gənc kadrların hazırlanması;
- meyvə və tərəvəzçiliklə bağlı infrastruktur və köməkçi sahələrin inkişafı.

## 6. Dövlət Proqramının həyata keçirilməsi üzrə TƏDBİRLƏR PLANI

| S/S | Tədbirin adı | İcraçılar | İcra müddəti |
|---|---|---|---|
| 1. | Naxçıvan Muxtar Respublikasının iqlim şəraitinə uyğun və yüksək məhsuldarlığa malik yerli meyvə-tərəvəz sortlarının bərpa və tətbiq olunması üçün tədqiqat işlərinin davam etdirilməsi, bu sortların yetişdirilməsi üçün müvafiq elmi-metodiki vəsaitlərin, dərsliklərin, monoqrafiyaların və informasiya bülletenlərinin nəşr edilməsi | Kənd Təsərrüfatı Nazirliyi, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti | 2016-2020 |
| 2. | Muxtar respublikada özünəməxsus ənənələrə malik olan kartof, sarımsaq, soğan, yerkökü və digər tərəvəzlərin əkin sahələrinin genişləndirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2016-2020 |
| 3. | Torpaqların su ilə təminatının yaxşılaşdırılması üçün suvarma şəbəkələrinin tikintisinin davam etdirilməsi | Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2016-2020 |
| 4. | Kəngərli rayonunun Şahtaxtı və Xok kəndlərində 3500 hektar torpağın suvarma suyu ilə təmin edilməsi üçün Araz çayından qidalanan nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi | Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi, Kəngərli Rayon İcra Hakimiyyəti | 2016-2020 |
| 5. | Meyvə və tərəvəz məhsullarının saxlanması üçün soyuducu anbarların yaradılmasının davam etdirilməsi | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2016-2020 |
| 6. | Meyvə-tərəvəz və onlardan hazırlanmış məhsulların keyfiyyətinin nəzarətdə saxlanılması | İqtisadiyyat Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 2016-2020 |
| 7. | Kəngərli rayonu ərazisində 100 hektar sahədə püstə bağının salınması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kəngərli Rayon İcra Hakimiyyəti | 2016-2017 |
| 8. | Kənd təsərrüfatı məhsullarının istehsalında istifadəsinə icazə verilən təbii və qeyri-təbii vasitələrin tətbiqinə, xaricdən idxal edilən üzvi və qeyri-üzvi gübrələrin keyfiyyət göstəricilərinə, toxumların və tingçilik məhsullarının müəyyən olunmuş tələblərə cavab verməsinə nəzarətin gücləndirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi | 2016-2020 |

*Ardı 2-ci səhifədə*

| | | | |
|---|---|---|---|
| 9. | Kənd təsərrüfatı məhsullarının kütləvi istehsalı dövründə sağlam rəqabət mühitinin yaradılması və daxili bazarın qorunması məqsədilə müvafiq tədbirlərin görülməsinin, o cümlədən yarmarkaların təşkilinin davam etdirilməsi | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2016-2020 |
| 10. | İxtisaslaşmış meyvə və tərəvəzçilik təsərrüfatlarının, müasir emal, qablaşdırma müəssisələrinin yaradılması və ixracyönümlü məhsul istehsal edən sahibkarlara maliyyə dəstəyinin göstərilməsi | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2016-2020 |
| 11. | Meyvə-tərəvəz əkini sahələrinin sığortası ilə əlaqədar tədbirlərin davam etdirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Baş Sığorta Agentliyi | 2016-2020 |
| 12. | Naxçıvançay, Əlincəçay, Gilançay çayları boyunca cəviz, armud, alma bağlarının salınmasının davam etdirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2016-2020 |
| 13. | Muxtar respublikanın Arazboyu düzənlik ərazilərində ərik, albalı, gavalı, şaftalı bağlarının salınmasının dəstəklənməsi | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2016-2020 |
| 14. | Kənd təsərrüfatı istifadəsindən kənarda qalmış torpaq sahələrində meyvə bağlarının salınmasına ictimai marağın artırılması | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları, kütləvi informasiya vasitələri | 2016-2020 |
| 15. | Naxçıvan Muxtar Respublikasının dağlıq və dağətəyi zonasında alça, cəviz, armud, heyva və alma bağlarının salınmasının davam etdirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2016-2020 |
| 16. | Muxtar respublikada üzümçülüyün inkişaf etdirilməsi və istehsalın artırılması, üzüm bağlarının salınmasının dəstəklənməsi | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları | 2016-2020 |
| 17. | Rayon və kəndlərdə kiçik həcmli meyvəqurutma istehsalı sahəsinin yaradılmasının davam etdirilməsi | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2016-2020 |
| 18. | Şoranlaşmış və ya eroziyaya uğramış sahələrin müəyyənləşdirilərək əkin dövriyyəsinə daxil edilməsi və mütərəqqi suvarma metodlarının tətbiqi | Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2016-2020 |
| 19. | Meyvə-tərəvəz və üzümçülük sahələri üzrə kadr potensialının artırılması və ixtisaslı gənclərin tədqiqata cəlb edilməsi | Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, Kənd Təsərrüfatı Nazirliyi | 2016-2020 |
| 20. | Genetik fondun qorunub saxlanılması məqsədilə yerli meyvə-tərəvəz sortlarının toxum materiallarının toplanılması, həmin sortların təcrübə sahələrində əkilərək biologiyasının və torpaq-iqlim amillərinə dayanıqlığının öyrənilməsi | Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2016-2020 |
| 21. | Ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalının dəstəklənməsi, genetik modifikasiya olunmuş məhsulların muxtar respublikaya idxalının və dövriyyəsinin qarşısının alınması | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 2016-2020 |
| 22. | Kənd təsərrüfatında ziyanverici və xəstəliklərə qarşı mübarizə tədbirlərinin və pestisidlərin satış şəbəkələrinin genişləndirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2016-2020 |
| 23. | İxtisaslaşdırılmış və müasir tələblərə cavab verən istixana komplekslərinin yaradılmasının davam etdirilməsi | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2016-2020 |
| 24. | Kənd Təsərrüfatı Nazirliyi laboratoriyasının fəaliyyətinin gücləndirilməsi və müasir avadanlıqlarla təmin olunması | Kənd Təsərrüfatı Nazirliyi, Maliyyə Nazirliyi | 2016-2017 |
| 25. | Tingçilik təsərrüfatlarının fəaliyyətinin genişləndirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları | 2016-2020 |
| 26. | Əkin atlaslarına uyğun olaraq meyvə-tərəvəz əkinlərinin aparılması | Kənd Təsərrüfatı Nazirliyi, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları | 2016-2020 |
| 27. | Meyvə-tərəvəz, o cümlədən üzümçülük sahələrinə investisiyaların cəlb edilməsi | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2016-2020 |
| 28. | Kənd təsərrüfatı məhsullarının tədarükü, satışı və emalı üzrə cəmiyyət və birliklərin yaradılmasının dəstəklənməsi | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2016-2020 |

**Ulu öndər Heydər ƏLİYEV:** ***Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən ən böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq.***

# Muxtariyyət salnaməsi



Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası geosiyasi mövqeyi baxımından bütün Türk dünyasını bir-birinə bağlayan körpüdür. Məhz bu səbəbdən XX əsrin əvvəllərində regionda marağı olan böyük dövlətlər ermənilərə hərtərəfli hərbi və maddi yardım göstərərək bölgədəki türk izlərini silməyə çalışırdılar. İnkaredilməz faktdır ki, tarixən hər bir böyük dövlət öz siyasətini həyata keçirərkən müxtəlif bəhanələrdən və amillərdən istifadə etmişdir. XX əsrin əvvəllərində Rusiyanın, İngiltərənin və ABŞ-ın Cənubi Qafqazda öz geosiyasi maraqlarını həyata keçirməsində başlıca amillərdən biri ermənilər idi. Qeyd etmək lazımdır ki, ermənilər bu dövlətlərin geosiyasi maraqlarının icraçısına çevrilsələr də, öz növbəsində, dünyanın bu böyük güclərindən gələcəkdə qurulması planlaşdırılan "Ermənistan dövləti" üçün öhdəliklər də əldə etmişdilər. Müxtəlif dövrlərdə ermənilərdən faydalanaraq qarşılıqlı əməkdaşlıq çərçivəsində formalaşan böyük güclərin siyasətləri Qafqazdakı Azərbaycan türkləri, o cümlədən naxçıvanlılar üçün fəlakət mənbəyi olaraq qalmış, minlərlə azərbaycanlının ermənilər tərəfindən soyqırımına səbəb olmuşdur. Lakin xalqın müqaviməti sayəsində torpaqlarımızın, eləcə də Naxçıvanın ermənilər tərəfindən işğalının qarşısı alınmışdır.

1920-ci il avqustun 10-da Sovet Rusiyası ilə Ermənistan arasında müvəqqəti saziş bağlandı. Həmin sazişin şərtlərinə görə Şərur-Dərələyəz Ermənistana verilirdi. Qarabağ, Zəngəzur və Naxçıvan isə yenə də "mübahisəli vilayətlər" elan olunurdu. Bununla Sovet Rusiyası Azərbaycan torpaqları hesabına Ermənistanı sovetləşdirmək məqsədi güdürdü. Ona görə də Nəriman Nərimanov Moskvaya göndərdiyi teleqramlarda Azərbaycanda sovet hakimiyyəti qurulana qədər mübahisəsiz sayılan vilayətlərin indi nədənsə mübahisəli sayılmasına qarşı ciddi etirazını bildirmişdi. 1920-ci il oktyabrın 28-də Sovet Rusiyası ilə daşnak Ermənistanı arasında başqa bir müqavilə də imzalandı. Bu müqavilədə Azərbaycanın rəyi nəzərə alınmadan Zəngəzur və Naxçıvan Ermənistana verilirdi. Bolşevik Rusiyası bu yolla ermənilərin rəğbətini qazanmaq istəyirdi.

Ermənistan SSR yaradıldıqdan sonra Azərbaycan ərazisinə iddialar daha da artdı. Lakin Nəriman Nərimanov və onun yaxın silahdaşlarının qəti mövqeyi və prinsipiallığı sayəsində Naxçıvanı Ermənistana birləşdirmək cəhdi baş tutmadı. 1920-ci il dekabrın 2-də Aleksandropolda (Gümrüdə) Ermənistanın daşnak hökuməti ilə Türkiyə arasında imzalanmış müqaviləyə əsasən sonradan Naxçıvan, Şərur və Şahtaxtıda səsvermə yolu ilə xüsusi idarəçilik yaradılmalı idi və Ermənistan onun işinə qarışmamağı öz öhdəsinə götürürdü. Həmin müqaviləyə əsasən, türk generalı Veysəl Ünüvar özünü müvəqqəti fövqəladə komissar elan etdi, öz dəstələri ilə Şərur da daxil olmaqla Ermənistanla sərhəd məntəqələri tutdu. Nəticədə, 1920-ci il dekabrın 28-də Ermənistan SSR Hərbi İnqilab Komitəsi bəyannamə ilə çıxış edərək Naxçıvanın müstəqilliyini tanımağa məcbur oldu.

Həmin dövrdə Naxçıvanda əhalinin narazılığı get-gedə artırdı. Bununla əlaqədar Azərbaycan İnqilab Komitəsinin üzvü, ədliyyə komissarı Behbud ağa Şahtaxtinski Naxçıvana gəldi. Naxçıvanda, Ordubadda, Şərurda və başqa yerlərdə Naxçıvanın Ermənistana verilməsinə qarşı böyük mitinqlər keçirilirdi. Əhalinin əksəriyyəti Azərbaycanın tərkibində müstəqil Naxçıvan Sovet Sosialist Respublikasının yaradılmasını tələb edirdi. 1921-ci ilin yanvar ayında Naxçıvanda onun Azərbaycan SSR tərkibinə daxil olması barədə rəy sorğusu keçirildi. Rəy sorğusu nəticəsində respublika əhalisinin 90 faizindən çoxu Naxçıvan diyarının Azərbaycan SSR tərkibində qalmasına tərəfdar çıxdı. Bu referendum özünün hərbi-siyasi əhəmiyyətinə görə Qars müqaviləsinin müddəalarına bərabər əhəmiyyətə malik siyasi hadisə idi. Əgər Naxçıvanın ərazi taleyinə dair 1921-ci ilin yanvar referendumu keçirilməsəydi, bəlkə də, Moskva və Qars müqavilələrinə heç ehtiyac da qalmayacaqdı. Bu, Azərbaycan diplomatiyası tarixində Behbud ağa Şahtaxtinskinin adı ilə bağlı olan uğurlu diplomatik gedişdir.

Behbud ağa Şahtaxtinski Rusiya XKS-nin sədri Vladimir Leninə göndərdiyi 13 avqust, 20 sentyabr, 7 oktyabr 1920-ci il və xüsusən 1 mart 1921-ci il tarixli məktub və teleqramlarında, əlavə etdiyi arayışlarda bolşevik hakimiyyətinin Şərq siyasəti, bu zaman yol verilmiş səhvlər, Rusiya-Türkiyə münasibətlərinin qurulması və bunun Rusiya üçün əhəmiyyəti, Azərbaycan-Rusiya münasibətləri, Azərbaycanın ərazi bütövlüyü problemi, Naxçıvanın Azərbaycanın tərkibində saxlanılması və ona muxtariyyət verilməsi və başqa məsələləri çatdırmış, təklif və mülahizələrini bildirmişdi. Behbud ağa Şahtaxtinskinin təklifləri Lenini maraqlandırmış və o, məsələnin RK(b)P MK Siyasi Bürosunda müzakirəyə çıxarılması barədə göstəriş vermişdi. Bu zaman Türkiyədən gələn nümayəndə heyəti ilə də danışıqlar aparılırdı. Danışıqlarda bir sıra məsələlərlə yanaşı, Naxçıvan məsələsi də müzakirə olunurdu. Naxçıvan məsələsinin həm Siyasi Büroda, həm də Türkiyə-Rusiya danışıqlarında müzakirə edilməsi onun ədalətli həllinə kömək göstərdi. 1921-ci il martın 16-da Naxçıvanla bağlı iki mühüm qərar qəbul edildi. RK(b)P MK Siyasi Bürosu Behbud ağa Şahtaxtinskinin təklifini bəyənərək Azərbaycanın tərkibində Naxçıvan Sovet Respublikasının yaradılması haqqında qərar qəbul etdi. Eyni zamanda həmin gün Türkiyə-Rusiya arasında Moskva müqaviləsi imzalandı və bu müqavilənin üçüncü bəndinə əsasən, Naxçıvan muxtar ərazi statusu alırdı.

Moskva müqaviləsinin maddə və şərtlərini daha da konkretləşdirmək və müəyyən mənada tamamlamaq, yəni Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasındakı həll olunmamış məsələləri, xüsusilə də ərazi problemlərini nizama salmaq məqsədilə yeni konfrans çağırmaq lazım gəldi. Moskva müqaviləsi ilə şərq sərhədlərini müəyyənləşdirən Türkiyə Qarsda da Cənubi Qafqaz respublikalarının hər biri ilə ayrı-ayrılıqda müqavilələr imzalamaq istəsə də, Behbud ağa Şahtaxtinskinin "vahid müqavilə bağlanmasının Cənubi Qafqaz respublikaları və Türkiyə üçün qarşılıqlı surətdə faydalı olduğu, inqilabi zərurətin bunu tələb etdiyi" təklifindən sonra 13 oktyabr 1921-ci ildə Qars müqaviləsi imzalandı. 20 maddə və 3 əlavədən ibarət olan bu müqavilənin bir sıra müddəaları

*Ardı 3-cü səhifədə*

Moskva müqaviləsinin müvafiq maddələri ilə uyğun idi. Ümumilikdə isə bu sənəddə qeyri-bərabər, zorla qəbul etdirilən müqavilələr, xüsusilə də Sevr müqaviləsi rədd edilirdi. Müqavilənin 5-ci maddəsi və 3-cü əlavəsinə əsasən, Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi statusu təsbit edildi və bu status məsələsində razılığa gələn tərəflər – Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri müəyyən olundu.

Qars müqaviləsinə əsasən, Naxçıvanın sərhədləri aşağıdakı kimi müəyyən olunmuşdu: "Üçbucaq təşkil edən zonada yerləşən Naxçıvanın ərazisi Urmiya kəndindən başlayan düz xətt boyunca Arazdəyən stansiyasına qədər, yenə də düz xətt boyu qərbi Daş Burun dağına (3142 m), suayrıcı xətlə şərqi Daş Burun dağından (4108 m) keçib Cəhənnəm dərəsi ilə bulaqdan (cənub) keçib, suayrıcı xətt üzrə Bağırsaq dağından (6607 və ya 6587 m) keçmiş İrəvan dairəsi və Şərur-Dərələyəz qəzasının inzibati sərhədi boyunca 6629 m yüksəkliyindən Kömürlü dağa (6839 və ya 6930) və oradan (3080) yüksəklіyindən Sayat Dağı (7868) Qurd Qulaq kəndi və Həməsür dağına (8160), 8022 yüksəklik Quru Dağa (10282) və bundan sonra keçmiş Naxçıvan qəzasının inzibati sərhədi".

Beləliklə, RSFSR hökumətinin, ingilislərin və amerikalıların erməniprəst mövqeyinə, erməni daşnaklarının cidd-cəhdlərinə və silahlı mübarizələrinə baxmayaraq, Naxçıvan əhalisinin qətiyyəti, dönməz iradəsi, Türkiyə hökumətinin obyektiv mövqeyi və Behbud ağa Şahtaxtinskinin diplomatik səyləri nəticəsində Naxçıvan Azərbaycanın tərkibində saxlanıldı.

1924-cü il yanvarın 8-də Zaqafqaziya MİK Naxçıvan diyarının Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsini elan etdi. Nəhayət, 1924-cü il fevralın 9-da Azərbaycan SSR MİK-in Rəyasət Heyəti Naxçıvan diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi haqqında dekret verdi. Dekretdə deyilirdi:

*1. Naxçıvan ölkəsi Azərbaycan SSR-in himayəsində Naxçıvan SSR-ə çevrilsin.*

*2. Naxçıvan SSR haqqında əsasnaməni hazırlamaq üçün Vəlibəyov, Bağırov, T.Şahbazi və A.Axundovdan ibarət komissiya yaradılsın və komissiya bir həftə müddətində həmin layihəni hazırlasın.*

Komissiyanın hazırladığı əsasnamə 1924-cü il martın 23-də Azərbaycan MİK tərəfindən təsdiq olundu. Bununla bərabər muxtar qurum kimi Naxçıvan SSR-in Konstitusiyası hazırlandı və 1926-cı il aprelin 18-də V Ümumnaxçıvan Sovetlər Qurultayında Naxçıvan SSR-in ilk Konstitusiyası qəbul edildi. Konstitusiyanın ikinci maddəsində deyilirdi: "Naxçıvan Sovet Sosialist Respublikası Azərbaycan Sovet Sosialist Respublikasının protektoratlığında olmaqla onun tərkib hissəsidir".

1924-1969-cu illərdə Naxçıvan Muxtar Respublikasında siyasi və iqtisadi həyat olduqca ağır, təzadlı və gərgin keçmişdir. Bu dövrdə Naxçıvan Muxtar Respublikasına münasibətdə mərkəzi hakimiyyətin yeritdiyi siyasət regionu imperiyanın aqrar əlavəsinə çevirmək məqsədinə xidmət etmiş, təbii sərvətlərlə zəngin olan muxtar respublikada məhsuldar qüvvələrin inkişafı aşağı səviyyədə saxlanmışdır. Lakin 1969-1987-ci illərdə ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə ilk gəlişi ilə doğma Azərbaycanımız, o cümlədən Naxçıvan diyarı da özünün əsl intibahına və inkişafa qovuşmuş, ikinci ömrünü yaşamağa başlamışdır. Şəhər və rayonların, ucqar dağ kəndlərinin siması dəyişmiş, əhalinin güzəranı yaxşılaşmış, Naxçıvanda yeni sənaye obyektləri, su anbarları, aqrar-sənaye kompleksləri, su elektrik stansiyası tikilmişdir. Sənaye istehsalının quruluşunda konserv, üzüm istehsalı, tikinti materialları, elektrotexnika avadanlığı, meşə və ağac emalının xüsusi çəkisi xeyli artırılmış, təhsil, səhiyyə, mədəni-maarif müəssisələrinin şəbəkəsi genişləndirilmişdir.

1990-cı ilin iyul ayında ümummilli lider Heydər Əliyevin Naxçıvana gəlməsi, burada siyasi fəaliyyət göstərməsi muxtar respublikanın ərazisini erməni işğalından, muxtariyyəti isə ləğv olunmaq təhlükəsindən xilas etmişdir. Həmin illərdə ümummilli liderimizin muxtar respublika parlamentində xüsusi bəyanatla çıxış etməsi, Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəliyə gətirərək dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkarlıq siyasətinə yönəltməsi Naxçıvanın muxtariyyət statusuna ikinci ömür vermişdir.

Ümummilli liderin Azərbaycana rəhbərliyi dövründə Naxçıvanla bağlı verdiyi sərəncamlar, bu diyara tarixi səfərləri, muxtar respublikanın 75 illik yubileyinin qeyd olunması, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının qəbulu və həllivacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin etmişdir.

Ulu öndərin siyasi yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə muxtar respublikanın 80 və 85 illik yubileyləri keçirilmişdir. Müstəqillik illərində muxtariyyətin dördüncü yubileyi – 90 illiyi cənab İlham Əliyevin 2014-cü il yanvarın 14-də imzaladığı Sərəncamla ölkəmizdə, eləcə də onun hüdudlarından kənarda təntənəli şəkildə qeyd olunmuşdur.

*Bu gün Naxçıvan yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. İqtisadiyyatın dirçəlməsinə, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir, yeni iş yerləri yaradılır, sərhədlərin etibarlı təhlükəsizliyi təmin edilir. Naxçıvan Muxtar Respublikasında irimiqyaslı tikinti-quruculuq, abadlıq və bərpa işləri aparılır, tarixə, mədəniyyətə, təhsilə və elmə qayğı artırılır, səhiyyə, idman və mədəniyyətin maddi-texniki bazası ilbəil möhkəmləndirilir. Bir sözlə, Naxçıvan Muxtar Respublikası heç vaxt indiki qədər abad, güclü, hərtərəfli inkişafa nail olmamışdır.*

**Emin ŞIXƏLİYEV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

## "Naxçıvan Muxtar Respublikası: tarix və müasirlik" mövzusunda elmi konfrans keçirilib

***XX əsrin 90-cı illərində qədim Naxçıvan diyarının muxtariyyətinin qorunub saxlanılması, bilavasitə, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Muxtariyyət statusunun beynəlxalq hüquqa əsaslanması Naxçıvanı həm də erməni təcavüzündən qoruyub.***

Bu fikirlər fevralın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun, AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinin, Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə "Naxçıvan Muxtar Respublikası: tarix və müasirlik" mövzusunda Naxçıvanın muxtariyyət qazanmasının 92-ci ildönümünə həsr olunan elmi konfransda AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev tərəfindən səsləndirilib.

Akademik bildirib ki, qədim diyara muxtariyyət statusunun verilməsi zəruri tarixi-siyasi, coğrafi amillərdən irəli gəlib. Naxçıvanın muxtariyyət qazanması onun Azərbaycanın tərkibində qalmasına, inkişaf etməsinə əhəmiyyətli hüquqi-siyasi zəmin yaradıb. Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi nəticəsində 1921-ci ildə Naxçıvanın muxtar respublika statusunda respublikamızın tərkibində qalmasını şərtləndirən Moskva və Qars müqavilələri imzalanıb. Beynəlxalq Moskva və Qars müqavilələri mühüm geostrateji əhəmiyyətə malik Naxçıvanın ərazisinin toxunulmazlığının təmin olunmasında mühüm əhəmiyyət kəsb edib. Həmin sənədlər əsasında 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının



təşkil olunması ilə birlikdə qədim diyarın təhlükəsizliyi və gələcək inkişafı da təmin olunub.

Vurğulanıb ki, Naxçıvan Azərbaycanın böyük dövlətçilik ənənələrinə malik olan qədim diyarıdır. X əsrdə burada "Naxçıvan şahlığı"nın, XII əsrdə isə Atabəylər dövlətinin yaranması da bunu təsdiq edir. Bundan əlavə, XVIII əsrdə Azərbaycan ərazisində yaranmış 18 xanlıqdan biri olan Naxçıvan xanlığı inzibati idarəçiliyin formalaşmasına əsaslı töhfələr verib. XX əsrin əvvəllərində həmin dövlətçilik ənənələrinin əsasında 1 milyondan çox əhaliyə malik olan Araz-Türk Respublikası yaradılıb. Bu hadisə qədim diyarın düşmənlərdən müdafiəsi və ərazisinin qorunub saxlanılması üçün əhəmiyyətli rol oynayıb. Bu mənada, Naxçıvanın muxtariyyət qazanması həm də tarix boyu yaranan dövlətçilik ənənələrinin davam etdirilməsinə rəvac verib. Həmin dövlətçilik ənənələrini yaşadan naxçıvanlılar 1918-1924-cü illərdə cərəyan edən daxili və xarici amillərin təsiri altında Naxçıvan Muxtar Respublikasının yaradılması üçün böyük səy göstəriblər. Əhali qədim diyarın Azərbaycanın tərkibində saxlanılması üçün istər hərbi, istərsə də siyasi-diplomatik sahələrdə fədakarlıqla mübarizə aparıb.

"Ulu öndər Naxçıvanın muxtariyyət qazanmasını dövlətçilik tariximizdə böyük nailiyyət kimi qiymətləndirib. Türk dünyasının böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə qədim diyarın toxunulmazlığı istiqamətində mühüm tədbirlər həyata keçirib", – deyən akademik İsmayıl Hacıyev vurğulayıb ki, həmin illərdə Naxçıvanda qəbul edilən tarixi qərarlar həm də Azərbaycan dövlətçiliyinin formalaşması, onun tərəqqisi, milli iqtisadi strategiyanın müəyyənləşdirilməsi, diplomatik münasibətlərin qurulması kimi əhəmiyyətli məsələlərdə də mühüm rol oynayıb.

Bildirilib ki, Azərbaycanın əsas ərazisindən ayrı düşən Naxçıvanın muxtariyyət statusu onun inkişafında, düşmən işğalından qorunmasında əsaslı rol oynayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 14 yanvar tarixli Sərəncamına və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə dair Tədbirlər Planına əsasən, yubiley münasibətilə Bakıda və Naxçıvan şəhərində, bir sıra xarici ölkələrdə tədbirlər keçirilib, dünyanın aparıcı mətbuat orqanlarında Naxçıvana həsr olunmuş məqalələr dərc edilib, muxtar respublikanın inkişafını əhatə edən elmi-tədqiqat materialları və kitablar çap olunub.

İsmayıl Hacıyev deyib ki, bu gün Naxçıvan Muxtar Respublikası sürətli inkişaf dövrünü yaşayır. 25 ildir, blokada vəziyyətində yaşamağına baxmayaraq, muxtar respublika gündən-günə daha sürətlə inkişaf edən bir diyara çevrilib, sosial-iqtisadi inkişafın, tərəqqinin özünəməxsus, mütərəqqi modelini formalaşdırıb. Qazanılan uğurların miqyasının davamlı olaraq genişləndirilməsi isə muxtar respublikamızı daha böyük nailiyyətlərə doğru aparır. Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyevin təməlini qoyduğu elmi əsaslara söykənən inkişaf strategiyasına əsaslanan alternativsiz siyasi xəttin uğurla davam etdirilməsi, bütün dövlət proqramlarının, infrastruktur layihələrinin reallaşdırılması irimiqyaslı quruculuq, abadlıq işlərinin davam etdirilməsinə, kənd təsərrüfatı, sənaye sahəsi də daxil olmaqla bütün istiqamətlərdə yeniyeni uğurların qazanılmasına rəvac verib. Məhz bunun nəticəsində 2015-ci ildə ümumi daxili məhsulun həcmi əvvəlki illə müqayisədə 1,7 faiz artaraq 2 milyard 467 milyon manatdan çox olub. Onun hər bir nəfərə düşən həcmi isə 5 min 600 manata bərabərdir. Yeni istehsal sahələrinin sayının artması və əhatə dairəsinin genişlənməsi nəticəsində bu gün muxtar respublikada 361 növdə məhsul istehsal olunur. Artıq 107-si ərzaq, 236-sı qeyri-ərzaq olmaqla, 343 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına təmin edilir.

Sonra Naxçıvan Dövlət Universitetinin elmi katibi, dosent Elçin Zamanovun "Muxtariyyət ərəfəsində Naxçıvanda ictimai-siyasi vəziyyət", AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, dosent Emin Şıxəliyevin "Moskva və Qars müqavilələri: Naxçıvanın ərazi taleyi", həmin institutun aparıcı elmi işçisi, dosent Musa Quliyevin "Behbud ağa Şahtaxtinski və Naxçıvanın muxtariyyət statusu", Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, dosent Xəzər Hüseynovun "Naxçıvan MSSR-in yaranması", "Naxçıvan" Universitetinin İdarəetmə fakültəsinin dekanı, dosent Elbrus İsayevin "Naxçıvan Muxtar Respublikasının inkişaf yolu" mövzularında elmi məruzələri dinlənilib, müzakirələr aparılıb.

**Rauf ƏLİYEV**

## Naxçıvan iqtisadiyyatı muxtariyyət dövrünün ən yüksək inkişaf mərhələsindədir

***Sağlam iqtisadiyyatın cəmiyyətin hərtərəfli inkişafı üçün əsas şərt olduğu, hər bir insanın yaxşı yaşaması naminə onun daha da möhkəmləndirilməsinin əhəmiyyəti hər kəsə məlumdur. Xüsusən dünyada qlobal rəqabətin kəskinləşdiyi bir dövrdə hər bir ölkədə bütün diqqətlər, ilk növbədə, iqtisadiyyatın inkişafına yönəldilərək sosial-mədəni inkişafdan tutmuş müdafiə məsələlərinədək bütün sahələrə iqtisadi zəmanət yaradılır.***

Müstəqil Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası da muxtariyyət illərində iqtisadi inkişafı ilə nəyə qadir olduğunu bir daha sübut edərək yeni bir mərhələyə qədəm qoymuşdur. Şərqlə Qərbin astanasında mühüm mövqe tutan Naxçıvanın 92 il ərzində keçdiyi bu inkişaf yolu bir çox cəhətlərinə görə çoxəsrlik bir dövrə sığan zənginliyə sahibdir.

Bu dövr ərzində Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında, təbii ehtiyatlarından istifadə, sənaye, kənd təsərrüfatı, ticarət, əhali məşğulluğu, insanların həyat səviyyəsi kimi məsələlərin həllində bir çox dəyişiklik olmuş, keçilmiş dövrün tələbinə görə kifayət qədər mürəkkəb proseslər baş vermişdir. Belə ki, tarixən özünün duzu, ipəyi, meyvələri ilə yaxşı tanınmış Naxçıvanın iqtisadi potensialı sovet hakimiyyətinin ilk illərində malik olduğu əsl potensialdan çox aşağı idi. O dövrdə ucqarların hərtərəfli inkişafı, əhalinin məşğulluğu, sosial rifah



20 mVt gücündə Naxçıvan Günəş Elektrik Stansiyası

halının yüksəldilməsi kimi məsələlərin həlli çox ləng aparılırdı. Nəticədə, Naxçıvanda 1969-cu ilədək cəmi 40 adda məhsul istehsalına nail olunmuş, burada da mineral ehtiyatların hasilatı və yeyinti sənayesi üstün olmuş, iqtisadiyyat aqrar çərçivədə məhdudlaşmışdı. İndi 92 illik muxtariyyətin həmin dövrünə nəzər saldıqda Naxçıvanın zəngin təbii iqlim və mineral ehtiyatlarından istifadə olunmadığı, onun bir muxtar qurum kimi güclü iqtisadiyyata sahib olması əvəzinə həmsərhəd olduğu qonşu respublikadan asılı olmasına daha çox diqqət edildiyi görünür.

Təkcə Naxçıvan Muxtar Respublikasının deyil, bütövlükdə, Azərbaycan Respublikasının tarixinə dönüş ili kimi yazılmış 1969-cu ildən sonrakı dövr, bu mənada, Naxçıvan Muxtar Respublikasının da hərtərəfli inkişafında dərin izlərlə yadda qalmışdır. Bu dövrdən başlayaraq öz xalqına, millətinə xidmət etməyi ən böyük xoşbəxtlik sayan xalqımızın böyük oğlu Heydər Əliyevin rəhbərliyi altında bütün Azərbaycan kimi, Naxçıvanın da inkişaf dövrü başlanmışdır. 1969-1987-ci illərdə gedən sürətli inkişaf prosesləri nəticəsində Naxçıvanda ilk dəfə olaraq regionda yaradılmış irihəcmli istehsal müəssisələri hesabına rahat iş yerləri açılmışdır. Belə ki, 1985-ci ilədək Naxçıvanda müxtəlif sahələr üzrə

*Ardı 4-cü səhifədə*

21 iri sənaye müəssisəsi istifadəyə verilmişdir. Bu dövrdə muxtar respublikada istehsal olunan məhsullar respublikanın və keçmiş ittifaqın müxtəlif yerlərinə göndərilir, torpaqlar əkin dövriyyəsinə cəlb olunur, Naxçıvan üçün ənənəvi olan bağçılıq, meyvəçilik istiqamətində mühüm işlər aparılırdı.

Milli mübarizə tariximizə qızıl hərflərlə yazılmış 1990-1993-cü illərdə Naxçıvanın muxtariyyəti daha böyük əhəmiyyət qazanmışdır. Bu dövr xalqımızın öz liderinin ətrafında yenidən daha sıx birləşməsi dövrü kimi xarakterizə edilir. Bu, elə bir zaman idi ki, hər tərəfdən blokadaya alınmış Naxçıvan Muxtar Respublikasının taleyi möcüzələrə qalmışdı. Xarici aləmlə nəqliyyat, kommunikasiya, ticarət imkanları hər tərəfdən bağlanmış, enerji və ərzaq ehtiyatları məhdud bir regionun iqtisadiyyatının da çökməsi burada yaşayan insanlar üçün ən ağır imtahan idi. Ancaq yorulmaq bilmədən Yeni Azərbaycanın gələcək layihəsi üzərində düşünən dahi rəhbər Heydər Əliyev bu dövrdə Naxçıvanda, öz xalqının yanında idi. Artıq Naxçıvanda hamının əl-ələ verib dağılmış iqtisadiyyatı yenidən bərpa etməyə iradə və gücü var idi. Beləliklə, 1990-1993-cü illərdə Naxçıvanda qonşu dost ölkələrlə əlaqələrin yaradılması, ərzaq, enerji təminatı məsələlərinin həlli, ölkənin paytaxtı ilə hava yolu əlaqəsinin genişləndirilməsi, aqrar islahatlara başla-



Naxçıvan Avtomobil Zavodu

nılması muxtar respublikanın etibarlı müdafiəsi qədər həyati əhəmiyyətli işlər olmuşdur.

Naxçıvanın muxtariyyət tarixində mühüm yer tutan son 20 il ölkəmizdə makroiqtisadi sabitliyə nail olunması ilə bərabər başlanan və cəmiyyətin bütün sahələrini əhatə edən genişmiqyaslı inkişaf mərhələsidir. Bu dövrdə blokadanın ağır nəticələrinin aradan qaldırılması ilə muxtar respublikada əhalinin həyat səviyyəsi yüksəldilmişdir. Özlüyündə bunlar heç də asan məsələ deyildi. Əli işdən soyumuş insanları yenidən öz sahəsinə qaytara bilmək böyük zəhmət tələb edirdi. Bu dövrdə Naxçıvanın hər yerində, şəhər, kənd demədən möhtəşəm quruculuq işləri həyata keçirilmişdir. Təkcə yol, körpü, binalar tikilməmiş, həm də insanların düşüncəsinə yeni quruculuq abhavası gətirilmiş, bu, onlara yeni



həyat tərzi qazandırmışdır.

Naxçıvanı müasir inkişafa qovuşduran bu dövrün statistikası çox zəngindir. Belə ki, muxtar respublikada ümumi inkişafı əks etdirən ümumi daxili məhsul istehsalı 1995-ci illə müqayisədə 56 dəfədən çox artaraq 2 milyard 467 milyon manatı üstələmişdir. Hər bir nəfərə düşən ümumi daxili məhsul istehsalı 42 dəfədən çox artaraq 5581 manatı ötmüşdür. Bu dövrdə muxtar respublikada sənayenin inkişafı üçün əsaslı tədbirlər həyata keçirilərək avtomobil istehsalına qədər yol keçilmiş, elektroenergetika sahəsində böyük nailiyyətlər əldə olunmuşdur. Belə ki, əgər 1995-ci ildə muxtar respublikada 56 sənaye müəssisəsi və cəmi 1 elektrik enerjisi istehsal edən müəssisə olmuşdursa, hazırda bu göstəricilər müvafiq olaraq 441-ə və 8-ə çatmışdır. Beləliklə, son 20 ildə Naxçıvan aqrar regiondan sənaye regionu olmaq yolunda mühüm məsafə qət etmişdir. Çox deyil, cəmi 15-20 il əvvəl tamamən idxaldan asılı vəziyyətdə olmuş muxtar respublikada istehsalın genişlənməsi ixracın da həcminə müsbət təsir göstərmiş, ötən il 414 milyon 420 min ABŞ dollarından artıq həcmdə məhsul ixracına nail olunmuşdur.

Hazırda muxtar respublikada özəl bölmənin payı 87,3 faiz təşkil edir. Yerli istehsal sahələrinin inkişafı nəticəsində 2015-ci ildə muxtar respublikada 361 növdə məhsul istehsal olunaraq 343 növdə məhsula olan tələbatın yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir. 2015-ci ilin məhsulu üçün muxtar respublikada 61 min 414 hektar sahədə əkin işləri aparılmışdır ki, bu da 1995-ci ilin məhsulu üçün əkilmiş sahədən 2,4 dəfə çoxdur. Ötən il Naxçıvan Muxtar Respublikasında bank və kredit təşkilatları tərəfindən 1995-ci ildəki müvafiq göstəricidən 268 dəfədən çox, yəni 70 milyon 221 min manat həcmində kreditlər verilmişdir.

Azərbaycan Respublikasının tərkibində muxtar dövlət kimi öz inkişafının ən yüksək mərhələsinə çatmış Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında əldə olunmuş bu nailiyyətlər burada ictimai həyatın bütün sahələrində özünü göstərir.

*İnkişaf zamanın tələbi, görülən işin, çəkilən zəhmətin nəticəsidir. Zaman keçdikcə görülən bu işlər də öz bəhrəsini vermişdir. İndi Naxçıvan Muxtar Respublikasının şöhrəti onun hüdudlarını, ölkə sərhədlərini çoxdan aşıb. Naxçıvan indi özünü hər yerdə tanıdan inkişaf yolunda addımlayır.*

**Əli CABBAROV**

*Xalq təqvimi*

# Xıdır Nəbi bayramı

***Naxçıvan bölgəsində xalq təqvimi ilə bağlı keçirilən mərasimlərdən biri də Xıdır və yaxud Xıdır Nəbi bayramıdır. Bu bayram "qışın oğlan çağında", kiçik çillənin onuncu günü, Novruzdan altı həftə qabaq qeyd edilir. Kiçik çillə yanvar ayının 31-dən fevralın 19-da qədər olduğundan Xıdır bayramı fevralın 9-da, kiçik çillənin yarı olduğu gündə keçirilir. Şərur rayonunun Aşağı Yaycı kəndindən topladığımız məlumata görə, burada Xıdır bayramını fevralın 5-i, qışın yarı olduğu gün keçirirlər.***

Xıdır Nəbi bayramı bəzən həftənin cümə axşamı gününə təsadüf etdiyindən bunu dinlə əlaqələndirirlər. Naxçıvan şəhərində indi də yanlış olaraq bayramı kiçik çillənin ikinci cümə axşamında qeyd edirlər. Ancaq Xıdır Nəbi bayramının dinlə heç bir əlaqəsi yoxdur. Əldə olan materiallara əsaslanaraq demək olar ki, bayram çətinlikdə insanların dadına, köməyinə çatan istilik hamisi olan Xızırla bağlı olub, onun şərəfinə keçirilir. Bu, İslamdan öncə formalaşmış əski türk inancıdır, bir qayda olaraq, fevral ayının 9-u keçirilməlidir.

Naxçıvan bölgəsində bayrama bir neçə gün qalmış onu qarşılamaq üçün hazırlıq işləri görülür, evlər səliqə-sahmana salınır, həyət-baca təmizlənir. İnama görə, səliqəsiz evə Xızır (ə.s.) gəlməz. Bayramda qovurmaq üçün buğda, küncüd təmizlənir, bir çox kəndlərdə (Kükü, Teyvaz, Şahtaxtı) Günəşi çağırmaq anlamında, Günəşin, yazın rənginə uyğun olaraq yumurtalar qırmızı rəngə boyanır. Qeyd edək ki, yumurta boyanması başqa kəndlərdə yoxdur. Ümumiyyətlə, bu adətə Novruz bayramında əməl edilir. Bəzi kəndlərdə isə Günəşin, istiliyin rəmzi olaraq çömçə bəzəyirlər. Bildirmək istərdik ki, Naxçıvan bölgəsində Günəşi çağırmaq anlamında Qodu mərasimi (Novruz bayramı ərəfəsində) keçirilir.

Qovrulmuş buğdadan (qovurğadan) qovut hazırlanır. Qovurğa kirkirədə (dəstərdə) çəkilir və yaxud həvəngdəstədə döyülür. Qovutu quru yemək çətin olduğundan ona bir az şərbət və ya doşab əlavə edib ovurlar.

Qovurğa ilə bərabər, bayram günü badam, noxud, günəbaxan tumu qovrulur, plov (aş) süzülür, xəşil bişirilir, müxtəlif şirniyyat növləri hazırlanır və süfrəyə düzülür. Evdə olan adamların sayına görə plovun yanına şam qoyulur. Çox təəssüf ki, hazırda bu adətlərin bir qismi icra olunmur.

Bayram hamıdan çox uşaqların sevincinə səbəb olur. Hava qaralan kimi onlar qapılara gedib torba, papaq atır, Xıdırın payın yığırlar. Pay gözləyənlər aşağıdakı misraları söyləyirlər:

*Xıdıra Xıdır deyərlər,*
*Xıdırın payın verərlər.*

və yaxud

*Çatma, çatma çatmaya,*
*Çatma yerə batmaya.*
*Xıdırın payın kəsənin,*
*Ayağı yerə çatmaya.*

Torbalara müxtəlif növ şirniyyat, çərəzlər qoyub uşaqları yola salırlar. Onu da qeyd edək ki, Culfa bölgəsində (Ləkətağ, Saltaq kəndləri) mal-qaranın yemi, insanların özlərinin ərzaqları qurtardıqda Xıdır Nəbidə evin bacasından ip, ipə bağlanmış corab sallayar, mal-qara üçün yem, özləri üçün ərzaq istəyərdilər. Toyuğu, cücəsi olmayanlar ipin ucuna lələk bağlayıb, toyuqcücəsi çox olanların evinin bacasından içəri sallayardılar. Evin yiyəsi də həmin adamın toyuq istədiyini bilib, torbaya toyuq qoyub geri qaytarardı. Demək olar ki, Xıdır Nəbi bayramı çətinliklərdən qurtarmaq, darda qalanlara kömək etmək, bərabərlik anlamında keçirilən milli bayramdır.

Topladığımız etnoqrafik materiallardan aydın olur ki, qovut çəkmələ yanaşı, bəzi kəndlərdə bayram gecəsi xəşil bişirib yük yığılmış taxtın altına qoyurlar. Çəkilmiş qovutdan da taxtın altına qoymaq adəti var. İnanca görə, Xızır Peyğəmbər gecə gəlib xəşilə barmağın, qovuta isə əlini basacaqdır. Xızırın (ə.s.) atının ayaq izinin qovuta düşdüyünə inanılır. Səhər xəşilin, qovutun üzərində müəyyən iz olsa, bunu Xızırın əlinin, barmağının və ya atının ayaq izi hesab edirlər. Deyirlər ki, bu il həmin evə uğur gələcək, bolluq, bərəkət olacaq, arzular həyata keçəcəkdir.

Digər bir inama görə, bayram günü xəşil bişirilib qalağın üstünə qoyulur. Əgər qəcələ (dolaşa) gəlib xəşildən bir dimdik götürüb uçub getsə, həmin evin qızı bu il özgə kəndə, əksinə, yerə salarsa, öz kəndinə ərə gedəcəkdir. Başqa bir inamda da deyilir ki, xəmirin içinə muncuq qoyulub kökə bişirilir, həmin muncuq kimin payının içindən çıxarsa, demək həmin insan tezliklə istəyinə çatacaqdır. Sarıqamış çərkəzlərində də Hıdır-Ellezdə duzlu çörək yapılır. Bu çörəyin bir hissəsini subay qızlar yeyər, qalan hissəsini isə yastığının altına qoyub yatar. İnanca görə, qız ailə quracağı oğlanı yuxusunda görər. İkinci günü çörəyin qalan hissəsini qarğaların yeyə biləcəyi yerə qoyurlar. Sonra qarğanın çörəyi götürüb hara gedəcəyinə baxıb qızın da o tərəfə gedəcəyinə inanırlar.

Ordubadın Kələki kəndində isə Xıdır Nəbi günü Xızırın şərəfinə ehsan verilir.

Toplanmış etnoqrafik materiallardan məlum olur ki, bir sıra kəndlərdə (Kükü, Yuxarı Qışlaq) Xıdır bayramı günü xına yaxmaq adəti mövcuddur. Qızlar, gəlinlər əl barmaqlarına, oğlanlar isə çeçələ barmaqlarına xına yaxarlar. Hazırlanmış xınadan bir qab pay götürüb (Xıdır payı) bayıra qoyurlar ki, Xızır gəlib əlinə yaxsın. Mənbələrə əsaslanaraq demək olar ki, xına çox qədim dövrlərdə Azərbaycan türklərində və digər türk xalqlarında şadlıq, sıxıntıdan, yasdan çıxmaq rəmzidir.

Xıdır Nəbi günü oğlan evindən nişanlı qızlara, ata evindən təzə gəlinlərə "Xıdır payı" aparmaq adəti geniş yayılmışdır. Qovurğa, küncüd, qovut, noxud, mərcimək və sair çərəzlərdən xonça tuturlar. Onu da qeyd edək ki, Cəhri, Payız, Gülşənabad kəndlərində bunun əksinə olaraq nişanlı oğlanlara qız evindən pay aparırlar. Payda bəyə isti köynək, yun corab da qoyulur. Xıdır Nəbi bayramını hamı səbirsizliklə gözləyir və bayramı sevinclə keçirir.

Xıdır Nəbi bayramında doğulan oğlan uşaqlarına Xıdır, Nəbi, İlyas və sair kimi adların qoyulması adəti də geniş yayılmışdır. Xıdır gecələrində axşamdan səhərə qədər külək əsərsə, deyərlər ki, bu, Xıdır Nəbidir, atın çapa-çapa bərəkət paylayır. Əsən külək isə onun boz atının yelidir.

*Mən Xıdırın nəyiyəm,*
*Boz atının yeliyəm.*

Xıdırın boz at minməsinə "Kitabi-Dədə Qorqud" dastanında da rast gəlirik. İnsanlar çıxılmaz vəziyyətdə qalanda boz atlı Xızırı arzulamış, o isə öz köməyini əsirgəməmiş, onlara yol göstərmişdir.

Xalq arasında olan inama görə, Xıdır Nəbi günü havaların xoş keçməsi ilin bol, bərəkətli olmasına işarədir.

Xızır həm də istilik və odla bağlıdır. Yuxarıda qeyd etdik ki, süfrəyə gətirilən aşın kənarlarına şam qoyurlar. Bu şamların qoyulması və yaxud

*Xıdıra Xıdır deyərlər,*
*Xıdıra çıraq qoyarlar*

deyimi də odla, istiliklə, istiliyi çağırmaqla əlaqəlidir. Bu, eyni zamanda qışın şaxtasının, soyuğunun odla, isti ilə gedəcəyinə, torpağın isinib oyanacağına işarədir. Od, istilik, xız yazın gəlməsinin əlamətləridir.

Bu bayramı təkcə Azərbaycan türkləri deyil, digər türk xalqları da qeyd edirlər. Anadolu türklərində bayram Hıdır-Ellez adı ilə may ayının 6-da, Balkanlardakı müsəlman-türk xalqları arasında isə aprel ayının üçüncü ongünlüyündə keçirilir. Türkiyənin İqdır bölgəsində isə Xıdır Nəbi bayramı Anadolunun digər ərazilərindən fərqli olaraq may ayının 6-da yox, Naxçıvanda olduğu kimi fevral ayında qeyd edilir. Xızır inancı zazaca danışan türklərdə də çox güclüdür. Hər il yanvar ayının son həftəsi ilə fevral ayının ilk həftəsi arasında Xızır bayramı keçirilir. Burada mövcud olan inanca görə, Xızır darda qalan, sıxıntıda olan insanlara yardım edən ulu bir varlıqdır. Bu həftə üç gün oruc tutulur.

Rodos türklərində Hıdır-Ellezdə dəniz kənarına gedilir. İnanca görə, Xızırdan nə istənilsə onun rəsmini çəkib dənizə atarlar. Qazaxlarda Xızır inancı Novruz bayramı ilə eyni gündə qeyd edilir.

*Sonda deyə bilərik ki, Xıdır Nəbi Orta Asiya mədəniyyətinin (şamanizmi), əski Anadolu mədəniyyətinin (bolluq, bərəkətlik ayinləri, ölümsüzlük), İslam mədəniyyətinin (Xızır İlyas motivi), Azərbaycan mədəniyyətinin (çətinlikdən qurtarmaq, Günəşi çağırmaq) və sairin birləşməsindən yaranan bir bayramdır.*

**Asəf ORUCOV**
***tarix üzrə fəlsəfə doktoru***

**İtmişdir**

Yaqubova Türkanə Həsən qızının adına olan 0600169072 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 8, mənzil 10-da yaşayan İsgəndərova Gülbəniz Qurban qızının adına olan 9067^ inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 118